# 100 yaşlı məktəbdən kitab yazıldı




Pedaqoji elmlər doktoru, professor, Əməkdar elm xadimi Fərrux Rüstəmovun "Qərbi Azərbaycanın Çəmbərək rayonunun Cil kənd orta məktəbi-100" kitabının təqdimatı olub.

Tədbirdə kitabın ideya müəllifi iqtisad elmlər doktoru, professor, Əməkdar müəllim Əvəz Ələkbərov, müəllifi Fərrux Rüstəmov, elmi məsləhətçisi, Qərbi Azərbaycan İcmasının sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli, elmi redaktor Azərbaycan Dövlət Pedaqoji Universitetinin Fəlsəfə və sosial elmlər kafedrasının baş müəllimi Fərzalı Rüstəmli, rəyçi filologiya elmləri doktoru, professor Sayalı Sadıqova və Cil kənd icmasının üzvləri iştirak ediblər.

## "Bu kitab təkcə məktəb yox, kənd haqqındadır"

Qərbi Azərbaycan İcmasının sədri Əziz Ələkbərli qeyd edib ki, bu kitab, sadəcə bir məktəbin tarixi deyil: "Bu kitab təkcə Cil məktəbi haqqında deyil, Cil kəndi haqqındadır. Burada məruz qaldığımız deportasiyalar, soyqırımlar, 200 il ərzində Qərbi Azərbaycanın keçdiyi yoldan danışılır".

O qeyd edib ki, kitabda məktəbin məzunlarının siyahısı da var: "Belə bir siyahı ilk dəfə təqdim edilir".

## Kənddən olan hər kəs haqqında məlumat var

Fizika-riyaziyyat elmləri doktoru, professor Misir Mərdanov kitabın çox əhatəli olduğunu deyib:



"Bir məktəb haqqında bu qədər geniş, böyük əhatəli kitab görməmişəm. Cil kəndindən olan insanların əksəriyyətinin şəkilləri var, o cümlədən I və II Qarabağ müharibəsində şəhid olan 17 nəfər haqqında da geniş məlumatlar verilib. Kənd məktəbinin direktorları, müəllimləri, həkim, mühəndis, iqtisadçı, hərbiçi məzunları haqqında da buradan maraqlı faktlar oxumaq olar".

## Milli kimliyini göstərən kitab

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru professor Mahirə Hüseynova kitabın üslubunun orjinallığını qeyd edərək onun hazırlanmasındakı çətinliklərə toxunub.

Kitabda şəkillərin önəminə diqqət çəkən professor onları əldə etməyin hər zaman çətin olduğunu vurğulayıb. Buna baxmayaraq, bu kitab vizual informasiya çoxluğu ilə seçilir: "Kitabı yazmaq asan deyil, xüsusilə də belə kitabları. Kitab Göyçə aşıq məktəbinin ənənəsini xatırladır. Onun marağı mündəricatından başlayır. Sonluğunda "Cil kəndində görüşənədək" ifadəsinin qeyd olunması insanda ümid yaradır".

Təqdimatda çıxış edən professor Əvəz Ələkbərov vurğulayıb ki, barəsində danışdıqları kitab insanların hansı nəsildən olduğunu aydınlaşdırmağa kömək edə bilər. O əlavə edib ki, kitabda poeziyaya, kəndin yazarları, məktəbin general məzunları haqqında məlumatlara geniş yer verilib.

## Bu kitab kəndimizin yaddaşıdır

Müəllif Fərrux Rüstəmov deyib ki, bu kitab keçmişlə gələcək arasında körpüdür: "Bu kitab kəndimizin bioqrafik yaddaşıdır. Bu günümüz, sabahımız arasında bir körpüdür. Biz gələcəyə tarixin çiynində gedirik. Gənc nəsil üçün bir yaddaş kitabı, xatirə kitabı olsun deyə dostlarımın köməyi, dəstəyi ilə bu kitabı ərsəyə gətirdik. Gələcəkdə də bu tip əsərləri davam etdirəcəyəm".

"Dünya Cil kəndindəki evimizdən başlanır", - deyən müəllif kitabda öz ailəsinə də yer verib.

F.Rüstəmov əlavə edib ki, bu kitab ölkə Prezidentinin müvafiq çağırışına uyğun olaraq ərsəyə gəlib.

Filologiya elmləri doktoru, professor Sayalı Sadıqova bildirib ki, kitab Çəmbərək kəndi haqqında fikir formalaşdırır. Onu "ensiklopedik material" hesab edən S.Sadıqovanın sözlərinə görə, burada bir kəndin yox, böyük bir mahalın keçmişi var: "Xalqın abidəsi, məbədgahı olan qəbiristanlığın da şəkli verilən kitabda, sadəcə Çəmbərək kəndi deyil, Göyçə mahalı haqqında da geniş məlumat əks olunub".

Tədbirdə Qərbi Azərbaycan İcmasının üzvləri professor İbrahim Bayramov, professor Həsən Bayramoğlu, ADU-nun Təhsil fakültəsinin dekanı, professor Hikmət Əlizadə çıxış ediblər. Qeyd edilib ki, belə kitabların çap olunması Qərbi Azərbaycanın daha dərindən öyrənilməsinə və bu bilgilərin cəmiyyətə ötürülməsinə imkan verir.

**Nərmin MƏMMƏDZADƏ**